**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** https://dergipark.org.tr/tr/pub/atdd

**Autumn 2022 / 9-3** https://doi.org/10.46868/atdd.247

# Səfəvilər Dövründə Məktəblər

**Əsgər Əhməd***
**ORGID: 0000-0003-3089-8360**

**Xülasə**

Məqalə Səfəvilər dövründə ibtidai təhsil verən məktəblərlə bağlı məsələlərin araşdırılmasına həsr edilmişdir. Tarixi mənbələr Səfəvilər dövründə şəhərlərdə və kəndlərdə məktəblərin geniş şəbəkəsinin olduğu haqqında məlumat verir. Səfəvilərin zamanında məktəblərin ən geniş yayılmış forması məhəllə məktəbləri idi. Bu məktəblər əsasən məhəllədə yerləşən məscidlərin nəzdində fəaliyyət göstərirdi. Kitabxanalar və kitab dükanları, alimlərin evləri, saraylar (divan məktəbləri) və s. kimi məkanlarda da təhsil verilirdi. Yetim uşaqların təhsili üçün ayrıca "beyt ət-təlim" adlanan məktəblər var idi. Məktəblərdə şagirdlərə başlıca olaraq Quran və dinlə bağlı biliklər öyrədilirdi. Bu proses başa çatdıqdan sonra şagirdlər oxuma və yazma kimi vərdişlərə də yiyələnə bilirdilər. Təhsildə başlıca üsul əzbərçilik idi. Məhəllə məktəblərində dərs deyən müəllimlərin əksəriyyəti də mədrəsə təhsili görmüş və məscidlərdə çalışanlardan (axund, müəzzin, molla və s.) ibarət idi. Səfəvilər dönəmində məktəbə uşaqlar əsasən 4-10 yaşları arasına gedirdilər. Lakin bu istəyi erkən yaşlarında gerçəkləşdirə bilməyənlər,istədikləri yaşda ibtidai təhsillərini davam etdirmək üçün məktəblərə müraciət edə bilərdilər. Məktəblərə şagirdlərin qəbulu il boyu davam etdirilirdi. Məktəb təhsili pilləsindəşagirdlərin rəğbətləndirilməsi və cəzalandırılması kimi hallar da geniş yayılmışdı.

**Açar sözlər:** Səfəvilər, Məktəb, Mollaxana, Şagird, *Əzbərləmə*, Fələqqə

**Gönderme Tarihi: 20/03/2022** **Kabul Tarihi:25/08/2022**

---

**T.ü.f.d., dosent, Bakı Slavyan Universiteti, "Diplomatiya və xarici siyasət" kafedrası, Bakı - Azərbaycan, Asker57@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
ƏHMƏD, Ə., "Səfəvilər Dövründə Məktəblər", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s.688-710.

# Schools During the Safavids Period

**Asgar Ahmad*** 
**ORGID: 0000-0003-3089-8360**

**Abstract**

The article investigates the issues related to schools providing of the primary education during the Safavids period. According to historical resources, a vast network of schools in cities and villages existed in the Safavids period.Community schools were the most widespread form of education in those days.These schools were mainly active under the mosques located in the neighborhoods.Education was also given in such places as libraries, bookstores, houses of scholars, palaces (divan's schools), etc. There were special schools called "beyt et-telim" for educating orphans. The pupils primarily learned Quran and religious knowledge in schools. After the process was completed, students were able to acquire skills such as reading and writing. The pirmary method in education was cramming. Many teachers who taught in community schools were educated in madrasas and worked in mosques (akhund, muezzin, molla, etc.). Children went to school mainly between the ages of 4 and 10 during the Safavids period.However, those who could not fulfill this wish at an early age could apply to schools to continue their primary education at any other age.School enrollment continued throughout the year.There were widespread cases of encouragement and punishment of students during school education.

**Keywords:** Safavids, Schools, Mollaxana, Pupil, Cramming, Fallagga

**Received Date: 20/03/2022** **Accepted Date: 25/08/2022**

**Assistant professor,Baku Slavic University,Department of Diplomacy and Foreign Policy, Baku - Azerbaijan, Asker57@gmail.com*

***You can refer to this article as follows:***
ƏHMƏD, Ə.,"Səfəvilər Dövründə Məktəblər", *Academic Journal of History and Idea,* Vol. 9, Issue 3, 2022, p.688-710.

# Школы в Сафавийский период

**Аскер Ахмед***
**ORGID: 0000-0003-3089-8360**

**Резюме**

Статья посвящена исследованию вопросов, связанных со школами, дающими начальное образование в период правления сефевидов. Древние источники дают сведения о бытие широкой сети школ в городах и селах во времена сефевидов. В период правления Сефефидов самой распространенной формой были квартальные школы. Эти школы в основном функционировали при мечетях, расположенных в данном квартале. Образование давалось также и в библиотеках, книжных магазинах, домах ученых, дворцах (школы-диван) и других схожих территориях. Для образования сирот отдельно существовали школы – *«бейт ат-талим».* В школах в первую очередь детей обучали чтению Корана и религиозным учениям. После завершения обучения дети брали навыки чтения и писания. Главным методом обучения было запоминание наизусть. Большинство учителей этих школ были выпускниками медресе и работниками мечетей (ахунд, молла, муэдзин и др.). В период Сефевидов дети ходили в школу в основном в возрасте от 4 до 10 лет. Однако те, кто не смог осуществить это желание в раннем возрасте, могли обратиться в школы для продолжения начального образования в любом другом возрасте. Прием учащихся в школы продолжался в течение всего года. В период школьного образования были широко распространены случаи поощрение и наказание учеников.

**Ключевые слова:** Сефевиды, школа, мусульманское духовное училище, ученик, фалакка (орудие наказания).

**Получено: 20/03/2022** **Принято: 25/08/2022**

---

* *Доцент Бакинского Славянского Университета,кафеда“Дипломатии и внешней политики”, Баку - Азербайджан, Asker57@gmail.com*
***Ссылка на статью:***
ƏHMƏD, Ə.,“Səfəvilər Dövründə Məktəblər”, *академическая история и мысль*, T.9, NO.3, 2022, C.688-710.

## Giriş

Azərbaycan dövlətçilik tarixində bir çox cəhətləriilə fərqlənən və özünəməxsus yer tutan Azərbaycan Səfəvilər dövlətində təhsil və təlim hakim təbəqənin diqqət yetirdiyi və önəm verdiyi sahələrdən biri olmuşdur. Bu birinci növbədə Səfəvilərin hakim ideologiyasına çevrilmiş, yeni On İki İmam şiəliyinin oturuşması və yayılmasına kömək edə biləcək kadrların hazırlanması ilə bağlı idi. Digər tərəfdən, şiəlik təliminin ideya əsaslarının təkmilləşdirilməsi və yeni müddəalarla zənginləşdirilməsi, eləcə də sünnilərlə kəskin mübarizə şəraiti və dini-ideoloji çəkişmələr də savadlı adamların olmasını tələb edirdi. Ona görə də Səfəvi hakim elitası bu cür problemlərin həllinə kömək edə biləcək, yeni təhsil müəssisələrinin açılmasında və savadlı kadrların yetişdirilməsində maraqlı idilər. İkincisi, ölkənin ictimai-siyasi və təsərrüfat-mədəni həyatının müxtəlif sahələri ilə bağlı yeni kadrların hazırlanması da Səfəvilərin gündəmində olan məsələ idi. Çünki getdikcə mərkəzi dövlət aparatının güclənməsi, bölgələrlə birbaşa əlaqələrin qurulması, ölkənin beynəlxalq əlaqələrinin inkişaf etməsi və bütövlükdə məmur aparatının böyüməsi yeni savadlı kadrlar ordusunun olmasını tələb edirdi. Xüsusilə də, I Şah Abbasın zamanında mərkəzləşdirilmiş dövlətin gücləndirilməsi ilə bağlı aparılan islahatlar, ölkənin iqtisadi və mədəni cəhətdən yüksəlişinə kömək edən qərarların qəbul edilməsi, eləcə də beynəlxalq siyasi və iqtisadi əlaqələrinin inkişaf etməsi daha çox ağıllı və savadlı adamlara ehtiyac yaratmışdı. Bəzən bu ehtiyacın aradan qaldırılması üçün sadə xalqın içərisindən çıxmış, eləcə də əsir götürülmüş, yaxud Səfəvi asılılığında olan xristian ailələrdən toplanmış istedadlı uşaqlardan da [təhsil verilərək] istifadə olunurdu.Üçüncüsü. orta əsrlərdə, o cümlədən Səfəvilərin hakimiyyəti dövründə təhsili stimullaşdıran amillərdən biri də təhsil görmüş insanların cəmiyyətin həyatında müsbət imicə və böyük hörmətə malik olmaları ilə bağlı idi. Onlar üstün keyfiyyətlərin daşıyıcıları kimi, cəmiyyətin ictimai-siyasi həyatında mühüm rol oynayırdılar. Dördüncüsü, təhsil həmçinin karyera qurmağın, mənsəb sahibi olmağın mühüm vasitələrindən biri idi. Digər orta əsrlər dövlətlərində olduğu kimi Səfəvilərdə də öz mövqelərini qoruyub saxlamağa çalışan [öz mülkləri, nəsil bağları, titulları və s. ilə] nüfuzlu ailələrlə təhsilli olduqlarına görə müəyyən mövqeyə yüksəlmiş məmurlar arasında mənsəb rəqabətinin və amansız mübarizəsinin şahidi oluruq.Beşincisi, Səfəvilər dövründə təhsilin inkişafına təkan

verən amillərdən biri də bütövlükdə cəmiyyətin təhsilə müsbət münasibəti ilə bağlı idi. Bunu ölkədəki məktəb və mədrəsələrin miqyası və əhatəliyi, onlara dəstək verən vəqflərin çoxluğu, eləcə də mədrəsələrdə dərs verən çoxsaylı alim və müdərrislərin, böyük və məşhur kitabxanaların olması da sübut edir. Ölkədə elm və sənətkarları himayə edən, onlara yardım göstərən, mədəniyyət və sənətlə bağlı fəaliyyətləri müdaifiə edən yeni elit zümrənin formalaşması da təhsilin inkişafına müsbət təsir göstərirdi.

**1-Təhsilin ilkin səviyyəsi kimi məhəllə məktəbləri**

Səfəvilər dövründə ölkə ərazisində təhsil ikipilləli xarakter daşıyırdı. Birinci mərhələ ibtidai təhsil verirdi. Livan əsilli amerikalı şərqşünas Georgi Makdisi özünün "İslamın Klasik Çağında ve Hıristiyan Batıda Beşeri Bilimler" adlı əsərində bildirirdi ki, «... məktəb və ya küttab, sadəcə, ilk dərəcə təhsil verən məkan»lar idi.[1]Hələ Abbasilər dövründə İslam şərqində küttab adı ilə yaranan ibtidai təhsil müəssisələri Səlcuqlar, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə məhəllə məktəbləri kimi tanınırdı. Bu cür məktəblər "məktəbi ibtidaiyə" adı ilə də tanınırdı. Bu məktəblərdə şagirdlər oxuma və yazma kimi vərdişlərlə yiyələnsə də başlıca məqsəd Quranın öyrənilməsi və dini biliklərin əldə edilməsinə xidmət edirdi. Ərəbcə "kə-tə-bə" kökündən yaranan məktəb sözü yazı yazma öyrənilən yer deməkdir.[2] Lakin, müsəlmanlar arasında bir uşaq üçün, hər şeydən əvvəl Quran öyrənilməsi vacib olduğundan bu kəlmə daha çox Quran öyrənilən yer mənasında işlənilmişdir.[3]Türkiyəli araşdırıcı Y.Gəlişli hesab edir ki, "valideynlərin uşaqlarına ayət və hədislərə əsaslanan dini inanc və şərtləri öyrətmə istəyi, sibyan (məhəllə - Ə.Ə.) məktəblərinin yayğınlaşmasına təsir etmiş və hər məhəllədə açılması ilə bağlı olaraq bunlara məhəllə məktəbi deyilmişdir".[4] XVII əsr Azərbaycanın görkəmli tarixçisi, şairi və xəttatı Məhəmməd Yusif Qəzvini Səfəvi dövründə məktəblərdə dərs deyən müəllimlərin dini ehkamların tədrisində oynadıqları əhəmiyyətli rola toxunaraq yazırdı ki, onlar "Allah qanunlarının mühafizəçiləri və Allahdan agah olma məktəbinin müəllimləri"dirlər.[5] Göründüyü kimi, Qəzvini də məhəllə məktəblərini "Allahdan agah olma məktəbi" kimi xarakterizə edir. Məhəllə məktəblərinin dini yönümlü olduğunu göstərən mühüm faktorlardan biri də, bu məktəblərin bir qayda olaraq məhəllədə və

[1]G.Makdisi, *İslam`ın Klasik Çağında ve Hıristiyan Batı`da Beşeri Bilimler,* Tercümə Hasan Tuncay Başoğlu, Klasik Yayınları, İstanbul 2007. s.58.
[2]İ.Parmaksızloğlu, *Türkiye'de Din Eğitimi,* Milli Eğitim Basımevi, Ankara, 1966, s.5.
[3]R.Dogan, "Osmanlı Eğitim Kurumları ve Eğitimde İlk Yenileşme Hareketlerinin Batılılaşma Açısından Tahlili*", Ankara Üniversitesi İlâhiyat Fakültesi Dergisi,* C. XXXVII, Ankara Üniversitesi Basımevi, Ankara 1998, s.413.
[4]Y. Gelişli, "Osmanlı İlköğretim Kurumlarından Sıbyan Mektepleri (Kuruluşu, Gelişimi ve Dönüşümü)", *Türkler,* XV, 2002. s.35-43.
[5]S.M.Onullahi, XVI –XVII əsrlərdə Təbrizdə maarif sisteminin bəzi məsələlərinə dair, *Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri*, TFH seriyası, 1974, №4. s.23.

ya kəndlərdə olan məscidlərin nəzdində fəaliyyət göstərməsi ilə bağlı idi. Bu faktı 1637-1638-ci illərdə Səfəvi ölkəsində səfərdə olmuş Alman bilim adamı Adam Oleari də təsdiqləyir. O yazırdı ki, onların ibadət etdiyi məscid və məbədlər, həm də onların məktəbləri vəzifəsini yerinə yetirirdi. Hər məhəllə və küçədə məscid, hər məsciddə isə məktəb və ya mədrəsə var idi.[6] Hər məscid və camidə bir məktəbin olması ölkədə məhəllə məktəblərinin çox yayğın olduğunu göstərir. Bunu tarixi mənbələrdə təsdiqləyir. Övliya Çələbinin verdiyi məlumatlara əsasən söyləyə bilərik ki, XVII əsrin 40-cı illərində Şamaxıda 40 ədəd məhəllə məktəbi[7], Təbriz şəhərində isə 600-ə qədər bu cür məktəblər var idi.[8] Ö. Çələbi "Səyahətnamə"sində Təbriz şəhərində olan Şeyx Səfi məktəbi, Haşan Məymədi məktəbi, Takı Han məktəbi, Sultan Haşanm məktəbi və s. kimi məhəllə məktəblərinin adını çəkir.[9]

**2-Məktəblərdə təhsilin müddəti**

Bir çox müsəlman ölkələrində olduğu kimi, məhəllə məktəblərinə uşaqlar erkən yaşlarından, 4-5 yaşından başlayaraq getməyə başlayırdılar. Məktəb tarixini araşdıran tədqiqatçılar arasında məktəbə hansı yaşdan getməklə bağlı fərqli fikirlər söylənilməkdədir. G. Makdisi yaş həddinin 7-8 yaşı keçmədiyini bildirir.[10] Türkiyəli araşdırıcı M. Hızlı məhəllə məktəblərində yaş həddinin 5-10 yaş arasında olduğunu qeyd edir.[11] XIX sonları Məşhəd şəhərində məktəb və mədrəsələrlə bağlı araşdırmalar aparan Rəhim Xəlilov isə bu yaş həddinin 8-9 yaş olduğunu söyləyir.[12] Yetimxanalarda uşaqların 4 yaşından etibarən təhsilə başlaması haqqında mənbələrdə məlumatlar vardır. Səfəvilərin müasiri olmuş M. Fizulinin "Leyli və Məcnun" əsərindən məlum olur ki, Qeys (Məcnun) məktəbə 10 yaşından məktəbə getmişdir.

---

[6]A.Oleariy, *Podrobnoye opisaniye puteshestviya Golshtinskogo posolstva v Moskoviyu i Persiyu v 1633, 1636 i 1639 godakh*, (Per. s nemets. P.Barsova), Universitetskaya tipografiya, Moskva 1870, s.809.
[7]E. Çelebi, *Gunumuz Turkcesiyle Evliya Celebi Seyahatnamesi: Bursa-Bolu-Trabzon-Erzurum-Azerbaycan-Kafkasya-Kırım-Girit* , 2. C., 2. Kitap, (haz.: Y. Dağlı - S. A. Kahraman), YKY İstanbul 2005, s.341.
[8]E. Çelebi, *a.g.e.*, s.286.
[9]Evliya Çelebi, *a.g.e.*, s.286
[10]G.Makdisi, *a.g.e.*,s.59.
[11]M.Hızlı, *Osmanlı Sıbyan Mektepleri*, Osmanlı, V, Edt. Güler Eren, Yeni Türkiye Yay., Ankara 1999, s.212.
[12]R.Khalilov, Mekteby i medrese gor. Meshgeda. *Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza (SMOMPK),* Vypusk dvadtsat sedmoy, Otdel I. Tiflis": Izdaniye Upravleniya Kavkazskogo Uchebnogo Okruga, 1900, c. 104.

Çün sür'ət ilə dönüb zəmanə,
On yaşinə yetdi ol yeganə;
Atasına müqtəzayi-adət
Fərz oldu ki, onu edə sünnət
İtmamə yetib təriqi-sünnət,
Tə'limi-ülumə yetdi növbət.
Əsbab ona eyləyib mürəttəb,
Verdilər onunla zibi-məktəb.[13]

XVII əsr Səfəvilərin təhsil sistemindən bəhs edən fransız səyyahı və taciri Şarden də öz "Səfarətnaməsində" yazırdı ki, uşaqlar 10 yaşından dərsə gedir və bütün yeniyetmə illərini orada keçirir.[14] Görünən odur ki, Səfəvilər dönəmində məktəbə uşaqlar əsasən 4-10 yaşları arasına gedirdilər. Lakin bu demək deyildi ki, təhsil almaq istəyən, lakin bu istəyi erkən yaşlarında gerçəkləşdirə bilməyənlər sonradan ibtidai təhsil üçün məktəblərə müraciət edə bilməzdi. Onlar istədikləri yaşda ibtidai təhsillərini davam etdirmək üçün məktəblərə müraciət edə bilərdilər. Məs. Yaqut əl-Həməvi kimi tanınmış bir şəxs böyük yaşlarında məktəbə getmişdi.[15] Məktəblərdə təhsil müddəti maksimum 10-11 il təşkil edirdi.[16] Ancaq şagirdlərin böyük əksəriyyəti təhsilini 9-10 il davam etdirdikdən sonra məktəbdən ayrılırdılar.[17] Məktəblərə şagirdlərin qəbulu il boyu davam edirdi.

**3-Məktəblərdə müəllim personalı**

Məhəllə məktəblərində dərs deyən müəllimlərin əksəriyyəti mədrəsə təhsili görmüş, cami və məscidlərdə çalışanlardan [axund, müəzzin, molla və s.] ibarət idi. Təsadüfi deyil ki, Səfəvi dövründə məktəb müəlliminə verilən adlardan biri də molla idi. A. Oleari yazır: "... hər məktəbdə bir molla və ya müəllim, mollanın köməkçisi və onu əvəz edən bir xəlifə olurdu".[18] Müəllimə molla adı daha çox ona görə verirdi ki, dərs deyən müəllim adətən məhəllə, yaxud kənd məscidinin mollası olurdu. Sonralar bu cür məktəblər mollaxana adlandırılmağa başladı. Səfəvilərin zamanında məktəb və mədrəsələrə müəllimlərin [müdərrislərin] təyin edilməsi və ona nəzarət işi də sədr (sədarəti xassə və əmma) və Şah Hüseynin vaxtından etibarən təsis edilmiş mollabaşı kimi dini vəzifəlilərin səlahiyyətlərinə daxil idi. Qeyd edək ki, sədr və

[13] M.Füzuli, *Leyli və Məcnun*, Əsərləri, Altı cilddə, II cild, Şərq-Qərb, Bakı 2005, s.48.
[14] J.Şarden, *Səyahətname-ye Şarden*. Tərcome-ye Məhəmməd Abbasi, C. II Ente-şarate Əmir Kəbir, Tehran h. 1335, s.287.
[15] Ə.Nəcəf, Orta əsrlər Azərbaycanında təhsil anlayışı, strukturu, metodologiyası və tədris vasitələri (X-XVI əsrlər), *Azərbaycan məktəbi*, № 2 [683], 2018. s.110
[16] Ə.Nəcəf, *a.g.e.*, s.111.
[17] R.Xəlilov, *a.g.e.*,s.107.
[18] A.Oleariy, *a.g.e.*,s.809.

mollabaşı dini müəssisələrə rəhbərlik etməklə yanaşı, eyni zamanda şiəliyin yayılması və möhkəmləndirilməsi üçün məsuliyyət daşıyırdılar.[19] Məhəmməd Rəfi Ənsari "Dəstur ül-müluk" adlı əsərində sədrin səlahiyyətlərindən bəhs edərkən yazırdı ki, onların başlıca vəzifələri: "... bütün vəqflərin idarə edilməsi ilə bağlı şəriət məhkəmələrinin və vəqf əmlakı sədrlərinin təyini, bütün seyidlərin, üləmaların, *müdərrislərin*, qazıların, şeyxülislamların, sədrlərin xəlifə üt-xüləfaların, bəzi mütəvəllilərin, vəqflərin nəzarətçilərinin, monastır xidmətçilərinin, xətiblərin, müəzzinlərin, Quran oxuyanların (kurra) və ziyalı adamların üzərində qəyyumluq və böyüklük etməklə bağlı idi"[20]. O həmçinin qeyd edirdi ki, şagirdlərin məclislərə gətirilməsi, onların ehtiyacları haqqında xəbərlərin verilməsi, mübarək ramazan ayında onları yedirtmək də (saray) sədrinin vəzifələri üzərinə düşürdü.[21]

**4-Dərs mövsümünün açılışı**

Məktəblərə ilk gedən şagirdlər üçün ailələrdə və məhəllədə xüsusi mərasimlər düzənlənirdi. Məktəbə gedən uşaq səliqəli geyindirilərək dualarla məktəbə yola salınırdı. Ümumiyyətlə, dərs ilinin aşılısı təntənəli şəkildə, bayram havasında həyata keçirilirdi. Əlbəttə, bu cəmiyyət və hakim elitanın təhsilə xüsusi önəm verməsindən qaynaqlanırdı. Açılış dərsləri sadəcə müdərrislər üçün deyil, həmin bölgənin qazıları, qadıl-qudatları (baş qazı, qazılar qazısı), elm mənsubları və alimləri üçün də əhəmiyyət kəsb edirdi. Açılış dərsində ilk dəfə müdərrisliyə başlayan müəllimlər böyük kütlənin hüzurunda kürsüyə çıxır və ilk dərsini keçirdi. Demək olar ki, şəhərin bütün təbəqəsindən insanlar onun dərsinə qulaq asıb qiymət verirdilər.[22] Araşdırıcı Ə.Nəcəf açılış mərasimlərinin bayram havasında keçirildiyinə işarə edərək yazır: "Təhsil ilinin açılışı təntənəli mərasim halında qeyd edildiyindən mədrəsə, məscid və camilərin həyatində müxtəlif növ şirniyyatlar bişirilir və bunlar şəhərin bütün təhsil məkanlarına və xeyriyyə ocaqlarına paylanırdı. Açılış dərsində iştirak edənlərin sayı, eyni zamanda, o müdərrisə verilən ümumxalq qiymətinin ölçüsü sayılırdı".[23]

**5-Məktəblərdə təlim metodu**

[19]S. Məmmədov, *Azərbaycan XV-XVIII əsrin I yarısında,* Bakı, V.İ. Lenin adına APİ-nin nəşri, 1981, s.50.
[20]M.R.Ənsari, *Dəstur ül-müluk,* Mütərcim, Bakı 2015, s.26.
[21]M.R.Ənsari, *a.g.e.,*s.27.
[22]Ə.Nəcəf, *a.g.e.,*s.112.
[23]Ə.Nəcəf, *a.g.e.,*s. 112.

Dərslər həftənin beş günü keçirilir və müsəlman ənənələrinə görə istirahət günləri dördüncü və beşinci günlər sayılırdı. Dərsdə uşaqlar yerə salınmış həsir, köhnə palaz və yaxud kilim üzərində dizi üstündə otururdular.[24] Dərs prosesi zamanı onlar dairəvi şəkildə mollanın ətrafında əyləşirlər. İlk dəfə dərsə gedən oğlan uşaqları birinci dərsdən etibarən mollanın nəzarətində Quranın dörddə birini təşkil edən çərəkə (Ərəb əlifbasının, Quranın bəzi surələrinin və ən çox oxunan duaların toplandığı kitabça) əsasında ərəb həriflərini əzbərləməyə başlayır və fərdi yanaşma üsulu ilə oxumanın əsasları uşaqlara öyrədilirdi. Əzbərçilik tədrisin əsas üsulu olduğundan şagirdlər dərs kitablarındakı ərəb sözlərini mexaniki və şüursuz olaraq ayırd edə bilirdilər. Çox qabiliyyətli olan şagirdlər çərəkənin oxunuşunu altı ay içində əzbərləyərək bitirə bilirdi. Quranın tam əzbərləmələri isə haradasa bir ilə yekunlaşırdı.[25] A. Oleari göstərir ki, təlim şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın oxuması ilə başlayırdı. Bunun üçün əvvəlcə Qurandan bir sıra bölmələr(surələr) öyrənilir, sonra isə bütövlükdə Quran tam şəkildə oxunurdu[26]. Məktəbdə olduğu bu müddət ərzində şagird yazı yazmağı öyrənə bilmirdi və ancaq Quranı bitirdikdən sonra molla onlara bu gözəl sənəti öyrətməyə başlayırdı.[27] Təlim prosesində əzbərçiliyə bu qədər böyük önəm verilməsi və yazıya şübhəcil yanaşılmanı müsəlman təhsil sisteminin spesifik xüsusiyyətlərindən biri kimi xarakterizə etmək olar. Müsəlman cəmiyyətində yazıya şübhə ilə yanaşılmasına təəccüblənən M. Çembrlen (Chamberlain) yazır: "Kitaba bu qədər dəyər verən bir mədəni quruluş içində yazılı mətnə şübhə ilə yanaşılması böyük bir paradoksdur".[28] Qeyd edək ki, Quran ayələrinin vəhy şəklində hz. Məhəmməd peyğəmbərə göndərilməsi və onun peyğəmbər tərəfindən əzbərlənərək ardıcıllarına çatdırılması, eləcə də İslam cəmiyyətində Quran mətninin əzbərdən söylənməsi ənənəsinin yayğın olması müsəlman dünyasında yazıya nisbətən əzbərçiliyin daha geniş yayılmasına təsir edən amillərdən ölmuşdur. Haris bin Hişam vəhlərin gəlişi ilə bağlı hz. Məhəmmədən nəql etdiyi bir rəvayətdə Rəsulullahın vəhləri anlaması və əzbərləməsi məsələsinə toxunur: "Bəzən qeybdən qulağıma zınqırov səsi kimi bir səs gəlir, bu səs gəldiyi zaman məndə yorğunluq və şiddətli bir hal ortaya çıxır, səs kəsildiyində mənə təbliğ edilmiş olan hökm və ayələri anlamış və əzbərləmiş oluram. Bəzən də vəhyi təbliğə məmur olan mələk, insan surəti və paltarında mənə görünür, təbliğinə məmur olduğu Allah sözlərini mənə təbliğ etdiyində bu sözləri anlamış və

---

[24]R.Xəlilov, *a.g.e.*, s.104.
[25]R.Xəlilov, *a.g.e.*,s.105
[26]A.Oleari, *a.g.e.*, s.809.
[27]R.Xəlilov, *a.g.e.*, s.105.
[28]Michael Chamberlain, *Ortaçağ'da Bilgi ve Sosyal Pratik, Şam, 1190-1350*, (Çev. Büşra Kaya), Klasik Yayınları, İstanbul 2014, s.177.

əzbərləmiş oluram".[29] Digər tərəfdən qədim dövrlərdən etibarən ərəb cəmiyyətində şifahi nitqin və bəlağətli söz söyləmək ənənəsinin yayğın olması da əzbərçiliyin İslam cəmiyyətində, o cümlədən təhsil prosesində yayğın olmasına təsir göstərmişdir. Orta əsrlərin böyük mütəfəkkirlərindən biri İbn Haldun özünün "Müqqədimə" əsərində bu məsələyə toxunaraq yazırdı: "Yazı və təhrir İslamın ilk çağlarında (təhsil ilə əldə edilən) bir sənət deyildi. Çünki ərəblərin hər biri, məqsədlərini ən bəlağətli ibarələrlə izah edə bilir, o cümlədən xəlifələrin özləri də məqsədlərini ən bəlağətli bir şəkildə ifadə edirdilər".[30] Əzbər eyni zamanda, Quranın oxunmasında, fiqhi hökmlərin verilməsində, hədislərin nəqlində, poeziya janırında və s. də çox önəmli yerə sahib idi.[31] İbn Haldun poeziya yanırında hifzin (əzbərin) vacibliyinə toxunaraq yazırdı: "... şeirlər əzbərləməyən kimsənin nəzmi də qüsurlu və pisdir. Şeirə əzbərin çox olmasından artıq zövq verən bir şey yoxdur. Əzbəri az olanın və ya heç olmuyanın şeri də olmaz. Şeirlər əzbərləyə bilməyən kimsənin şeir söyləməkdən qaçınması gərəkdir".[32] Qeyd edək ki, orta əsrlərdə İslam bilim adamları arasında təhsildə əzbərçilik metodunun həm tərəfdarları, həm də əlehdarları olmuşdur. Qazı Vaki (öl. 918), İbn əl-Əllaf (IX-X əsrlər), Əbu Hamid əl-Qəzali (öl. 1111), Ziyaəddin İbn əl-Əsir (öl. 1233) və s. kim bir çox orta əsrlərin İslam mütəfəkkirləri əzbərçiliyin qəti tərəfdarları olmuşlar. Əl Qəzali aid edilən heykayətdə əzbərləmənin əhəmiyyətinə toxunulur: "Dörd il İranın Rey şəhərində böyük mədrəsədə təhsil alan əl-Qəzali (o zaman hələ İmam Qəzali deyildi) fəlsəfə, metafizika və bu mədrəsədə öyrədilən bütün dərsləri izləmiş və öyrənəcəyi bir şey qalmadığı qənaətinə gələrək, doğulduğu şəhərə dönmək üçün yola çıxır. O zamanlar təkbaşına səyahət etmək məcburiyyətində qalan Qəzali də hamı kimi geri qaydarkən bir karvana qoşulmuşdu. Səhrada qarşılarına çıxan bədəvilər karvanı soymuş və Qəzalinin içərisində dərslərdə apardığı qeydləri olan heybəni də özləri ilə götürmüşlər. Bundan sonra Qəzali bədəvilərin başçısına yalvararaq heybənin içində dərs qeydlərindən başqa bir şey olmadığını və bunların da oxuması yazması olmayan kəslərin işinə yaramadığını bildirərək heybəsinin geri qaytarılmasını istəmişdi. Bunun doğru olduğunu öz gözləri ilə gördükdən sonra heybəni Qəzəlinin ayaqları altına atan bədəvilərin başçısı, "Mədrəsəyə kağızlar dolu yazı yazmaq üçün yox, elm öyrənmək üçün getdiyini güman edirdim" - demişdi. Hekayəyə görə bu sözdən çox təsirlənən Qəzalı karvandan ayrılaraq Reyə qayıtmış və bu dəfə heç bir qeyd aparmadan dörd il daha

[29]İ.Haldun, *Mukaddime I*, (Çev. Zakir Kadiri Ugan), Millî Eğitim Basimevi, Istanbul 1997, s. 239-240.
[30]İ.Haldun, *a.g.e.,* s.602.
[31]Ə.Nəcəf, *a.g.e.,* s.115.
[32]İ.Haldun, *a.g.e.,*s.237.

oxumuşdu.[33]Ancaq orta əsrlərin bir çox mütəfəkkirləri təhsildə əzbərçiliyin mənfi nəticələrini görür və ciddi surətdə onu tənqid edirdilər. Orta əsrlərin müsəlman təhsil sistemin özəlliklərinə öz əsərlərində geniş yer ayıran belə müəlliflərdən biri də İbn Haldun idi. O, əzbərçilik metodu ilə yetişmiş olan şagirdin uzun zaman xərcləməsinə baxmayaraq, təhsildə uğursuz olacağını söyləyərək yazır: "Zamanəmizdə doğru və faydalı tədris metodunu bilməyən çox sayda müəllimə şəxsən şahid olduq. Bunlar hələ təhsilin başlanğıcında, o biliyin başa düşülməsi çətin olan məsələlərini izah etməyə çalışırlar. Onu, bu məsələləri anlamağa və əzbərləməyə məcbur edirlər. Müəllimlər bunu doğru bir təhsil metodu hesab etməkdədirlər. Halbuki şagirdin zehni bunları anlayacaq dərəcədə inkişaf etmiş deyil. Onsuz da o biliyi öyrənmək onun üçün çox çətindir. Bunun bir nəticəsi olaraq şagird tənbəlləşər, zehini biliyi qəbul etməz, onun bu biliyi öyrənməməsi davam edər. Bu isə tədris üsulunun qüsurlu olmasının bir nəticəsidir".[34]

**6-Dərsliklər və dərs prosesi**

Səfəvi dövrü məktəblərində də təlim prosesində Quranın əzbər öyrənilməsi məcburi olub bütün şagirdlər üçün vacib olan bir mərhələ idi. Məktəbli bu mərhələni başa vurduqdan sonra ÜbeydZəkaninin "Siçan və pişik", FəridəddinƏttarın"Nasihətnamə", Sədinin "Gülüstan" əsərindən, Hafizin "Divan"ından parçalar əzbərləyərək öyrənirdilər.[35,36] Adam Oleari də qeyd edir ki, Quran kursu bitdikdən sonra məktəblilərə öyrənmək üçün Şeyx Sədinin "Gülüstan" və "Bustan" əsərləri verilir, nəhayət sonda onlar Hafisin şeirlərini öyrənirdilər".[37] Səfəvilər dövründə ərəb dili ilə yanaşı, fars dili və azərbaycanlıların yayıldığı areallarda Azərbaycan dili də tədris dili idi. Quran və yuxarıda bəhs etdiyimiz müəlliflərin əsərlərinin oxunuşundan sonra, şagirdlərə şiə dünyagörüşünə uyğun hazırlanmış və dinin təməl qaydalarını özündə əks etdirən kitablar öyrədilirdi. Eyni zamanda molla şagirdlərə oruc, namaz qılınması, dəstamaz alınması, zəkat, xüms və buna oxşar digər bir çox məsələlər haqqında məlumat verirdi.[38] Məktəblərdə həmçinin hesab dərsləri də tədris edilirdi. Bu faktı A. Oleari də təsdiqləyir. O yazır: "Onların ümumi məktəblərində hesab [arifmetika] dərsi şagirdlər oxuma və yazmanı öyrəndikdən dərhal sonra keçirilirdi".[39]

---

[33]J.D.Bernal, *"Modern Çağ Öncesi Fizik"*, (Çev. Deniz Yurtören), TÜBİTAK Popüler Bilim Kitapları, Ankara 1995, s. 118.
[34]İbni Haldun,*Mukaddime III,* (Çev. Zakir Kadiri Ugan), Millî Eğitim Basimevi, Istanbul 1996, s. 145-146.
[35]*Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər),* Prof. S.S.Əliyarlının redaktəsi ilə, Çıraq, Bakı 2009, s. 435-436.
[36]*Azərbaycan tarixi,* Yeddi cilddə, C. III (XIII-XVIII əsrlər), Elm, Bakı 2007, s. 274.
[37]A.Oleariy, *a.g.e.,* s.809.
[38]R.Xəlilov, *a.g.e.,* s.106.
[39]A.Oleariy, *a.g.e.,* s.814.

Verilən tapşırıqların hazırlanması və dərslərin öyrənilməsi adətən məktəblərdə həyata keçirilirdi. Uşaqlar günlərinin böyük bir hissəsini məktəblərdə keçirirdilər. Onlar əzbərləyəcəkləri mətni xorla ucadan və dəfələrlə təkrar edərək oxuyurdular. Bu barədə A. Oleari yazır: "Onların hamısı eyni vaxtda və eyni mətni xeyli dərəcədə ucadan oxuyaraq küləyin təsiri ilə tərpənən qamış kimi, o tərəf bu tərəfə yellənirdilər. Bu cür yellənməni biz Ərdəbildə Şeyx Səfi məqbərəsində olarkən də gördük".[40] Orta əsrlərin müsəlman şərqinin məktəblərində daha yuxarı pilləyə adlama sinfi keçməklə deyil, müəyyən edilmiş kitabın öyrənilib bitirilməsi əsasında aparılırdı. Burada şagirdlərin düşüncələrinin inkişafına, yaş və qabiliyyətlərinə yox, mövzunu bitirməsinə əhəmiyyət verilirdi. Məktəblərin proqramları olmurdu. Tədris prosesi daha çox müəllimin bilik və peşəkar vərdişlərindən asılı idi.

Məktəb həyatında önəmli məsələlərdən biri də şagirdlərin yazı yazmağı öyrənmələri ilə bağlı idi. Yuxarıda qeyd etdiyimiz kimi şagirdlərə yazı yazmağın öyrədilməsi onlar tərəfindən Quranın tam əzbərlənməsindən sonra həyata keçirilirdi. Şagird yazmağı ayrı-ayrı hərifləri və onların qarışıq birləşmələrini deyil, kəlmələr və cümlələrdən başlayaraq öyrənirdilər. Ona görə də onlar mollanın yazdıqlarını şüursuz şəkildə köçürürdülər. Nəticədə məktəblilər hələ uzun illər müstəqil və ya diktə ilə yazı yazmağı bacarmırdılar.[41] Mollanın gözəl xətlə yazı yazması çox önəmli idi. Çünki şagirdlər öz xətlərini ona uyğunlaşdırırdılar. Məktəbdə yaxşı yazan müəllimin olması həmin məktəbin nüfuzunu artırırdı və valideynlər də uşaqlarını bu cür məktəblərə verilməsinə üstünlük verirdilər. Yazmağı öyrənən məktəbli bu münasibətlə öz müəlliminə hədiyyə gətirirdi. Şagirdlər yazı yazmağı öyrənərkən kağız, mürəkkəb və qələm kimi yazı ləvazimatlarından istifadə edirdilər. A. Oleari Səfəvilər zamanında işlənən yazı ləvazimatları haqqında ətraflı məlumat verir. O yazır: "İranlılar məktəblərdə və haralarda olursa olsun, böyük və kiçik olsun yazı yazarkən kağızı dizlərinin üstünə qoyaraq yazırlar. Kağız bizdəkinə oxşar bir kətan parçadan hazırlandığı kimi, onlarda da pambıq parçadan düzəldilirdi. Bəzən daha nazik və yaxşı eləmək üçün ipək parçadan da istifadə edirlər. Onlar parçanın üzərindəki tük və qırış yox olana qədər onu hamar daşla o qədər ütülüyürdülər ki, sonda o parlaq lövhəyə bənzəyirdi. Onlar mürəkkəbi nar qabığından, həmçinin mürəkkəb qozundan və kuporosdan hazırlayırlar. Mürəkkəbin keyfiyyətli, yəni qatı olması üçün ona düyü, arpa qızardılıb, yaxud yandırıb əzdikdən sonra qatışdırır və ondan qatı kütlə düzəldirlər. Bu cür hazırlanmış keyfiyyətli mürəkkəblər bərk parçalar halında Hindistandan da gətirilir. Mürəkkəb lazım olduqda onlar bərk mürəkkəb parçasını maye

[40] A.Oleariy, *a.g.e.*, s.809.
[41] R.Xəlilov, *a.g.e.*, s.105.

halında olan ağac yapışqan ilə təmizləyib ipək lifi ilə qarışdırıb ondan mürəkkəb əldə edirdilər. Qələmi bizdəki kimi qaz lələyindən deyil, qamışdan hazırlayırlar”.[42]

**7-Şagirdlərin rəğbətləndirilməsi və cəzalandırılması**

Məktəb təhsili pilləsində mühüm məsələlərdən biri də şagirdlərin rəğbətləndirilməsi və cəzalandırılması ilə bağlı idi. Quranın müəyyən hissəsini öyrəndikdən sonra tətil (bir günlük) verilməsi, təriflamək, təbəssümlə qarşılamaq, müəllimin əvəzinə Quran oxunmasına icazə vermək, müəllimin köməkçisi təyin olunmaq belə rəğbətləndirmə metodlarından idi.[43] Məktəb və mədrəsələrdə şagirdlərin cəzalandırılması sistemi də orta əsrlərin müsəlman məktəblərində geniş yayılmış bir hal idi. Xüsusilə də cismani cəzalar tətbiqi geniş yayılmış və falaqqa (cəza vasitəsi olub, uzun bir ağacdan ibarətdir ki, hər iki ucuna kəndir sarılır, problemli məktəblinin ayaqları, yaxud əlləri buna bağlanır və dəyənəklə ayaqların altına (ovucun içinə) vurulur) adlanan üsul ilə cəzalandırma hər bir məktəbdə tətbiq edilirdi. Valideynlərin də bir çoxu bu cür cəza tədbirlərini qəbul edir və uşaqlarını məktəbə verərkən “əti sənin sümüyü mənim” prinsipindən çıxış edirdilər. Lakin məktəblərdə bəzən bu cəzalar, xüsusilə də cismani cəzalar ifrat xarakter daşıyır və zərərli nəticələrə gətirib çıxarırdı. İbn Haldun məktəblərdə cismani cəza sisteminin zərərli nəticələrinə toxunaraq yazırdı: “Təhsil və tədris işlərində tələbələrə, xüsusən kiçik yaşdakı uşaqlara sərt davranmaq zərərlidir. Çünki bu sərt davranışlar tələbələrdə pis bir vərdiş yaradır”.[44] O bildirirdi ki, məktəblilərə qarşı davamlı cəza üç mənfi nəticəyə gətirib çıxardır. Bunlardan birincisi, şagirdin nəşəsini, iş və çalışma istəyini yox edir, onu tənbəlliyə sürükləyir. İkincisi, şagirdi yalançılığa və saxtakarlığa sövq edir. Onlar qəlblərində saxladıqlarının və düşündüklərinin əksini söyləməyə çalışır. Üçüncüsü, ona hiylə etməyi, məkr yolunu tutmağı və müəllimini aldatmağı öyrədir.[45] İbn Haldun davam edərək yazırdı: “Getdikcə bu hallar onlar üçün adətə və onların xarakterinə çevrilir. Sosial həyatla və mədəniləşməklə əldə ediləcək üstünlükləri, özünü və ailəsini (və cəmiyyəti) qorumağa adət etməkdən ibarət olan insanlıq mənasını itirir. Bu kimi məqamlarda başqalarının çolum-çocuğu dərəcəsinə enərək özünü və ailəsini qorumaq üçün başqalarına möhtac olur. Bunun nəticəsi olaraq fəzilətlər və gözəl xarakterlər kəsbetməkdən çəkinir, tənbəlləşirlər, nəfsləri bu kimi fəzilətlər və insanlıq üçün lazım olan üstünlükləri əldə etməyi istəmir. İnsanlığın ən aşağı dərəcəsinə enirlər və düşkünləşirlər. Başqaların pisliyi və əsarəti altına düşən xalqların halı da

[42]A.Oleariy, *a.g.e.,* s. 809-810.
[43]F.Rüstəmov, *Şərqdə pedaqogika tarixi (qədim və orta əsrlər,* Nasir, Bakı 2002, s. 106.
[44]İ.Haldun, *a.g.e.,*1996, s. 160.
[45]İ.Haldun, *a.g.e.,*1996, s.160.

belədir".[46] Səfəvilər dövründə də məktəb və mədrəsələrdə müsəlman dünyasında yayğın olan cəza sistemi öz aktuallığını qoruyub saxlamışdı. Holişteyinli səfir A. Oleari Səfəvi ölkəsində olarkən məktəblərdə müşahidə etdiyi cəza sistemindən öz səyahətnaməsində geniş bəhs etmişdir. O yazır: "Nəyə görəsə də günahlandırılan uşaqları, orada bizdəki kimi arxasını çubuqla qırmanclamayırlar, lakin dəyənəklə döyürlər. Mən bir dəfə gördüm ki, iki oğlan uşağı günahladırılan uşağın ayaqlarını bir şüvül ağac parçasına bağlayaraq tutmuşdular, molla isə onun çılpaq ayaqlarının altına dəyənəklə kifayət qədər güclü zərbələr endirirdi. Bu cür üsulla bəzən günahkar uşağın əlləri də bağlanır və ovuclarının içinə dırnaqlarından qan gələnə qədər dəyənəklə vurulurdu. Əgər uşağın əxlaqı tamamilə korlanmış, onun günahı çox böyük və onu islah etmək çətin idisə, onda ayaqlarının altındakı dərini kəsir və kəsik yerlərinə duz səpirdilər".[47] Səfirin də təsvirindən göründüyü kimi Səfəvi dövründə də məktəblərdə uşaqlara çox sərt cəzalar verilirdi. A. Oleari iranlılar arasında olan uşaqların cəzalandırılması ilə bağlı qəribə bir inancdan da bəhs edir. "Doğum ərəfəsində olan qadının qohumları, dostları, hətta qonşuları məktəbə qaçaraq mollaya, yaxud müəllimə hədiyyələr verirdilər ki, günahı olan və cəzalandırılmasını gözləyən uşaqlara rəhm etsin və onları bağışlayaraq evlərinə buraxsınlar. İranlılar bununla hamilə qadının doğuşunun uğurla yekunlaşacağına inanırdılar".[48]

### 8-Yetim uşaqların təhsili

Orta əsrlərdə Azərbaycan ərazisində mövcud olan məktəb formalarından biri də yetim uşaqların təhsili üçün olan "*beyt ət-təlim*" adlanan məktəblər idi. Bu tip məktəblərdə hər 10 uşağa bir tərbiyəçi – atabəy təhkim olunurdu. Onlar yetimlərin yaşayışına, yeməyinə, geyiminə, tərbiyəsinə və s. cavabdeh idilər. Atabəylər uşaqları müəllimlərin yanına aparır, dərsdən sonra öz yerlərinə gətirir və burada onların tərbiyəsi və dərsləri ilə məşğul olurdular.[49] Bu məktəblər həm də yetimxana, yetim evi rolunu oynayırdı. Hələ vaxtilə Elxani hökmdarı Qazan xan (1294-1304) Təbriz şəhərində Şənbi-Qazan və Rəbi-Rəşididə bu cür yetimxana məktəblər təsis etdirmişdi.[50] Mənbələr Səfəvilər dövründə də bu cür məktəblərin olmasından xəbər verir. Məs. Şah Təhmasibin zamanında onun əmrinə əsasən Təbrizdə yetim uşaqlar üçün ayrıca məktəb açılmış və məktəb müəllimlərlə təmin edilmişdi. Bu tip

[46]İ.Haldun, *a.g.e.,*1996,s.160.
[47]A.Oleariy, *a.g.e.,* s.810.
[48]A.Oleariy, *a.g.e.,* s.803-804.
[49]V.Piriyev, *Azərbaycan XIII-XIV əsrlərdə,* Nurlan, Bakı 2003, s.278.
[50]Ə.Nəcəf, *a.g.e.,* s.116-117.

məktəblərin saxlanma xərcləri bir qayda olaraq xəzinənin və vəqflərin hesabına həyata keçirilirdi.[51] Yetim məktəblərində təhsil alan şagirdlərə təqaüd də verilirdi.

**9-Evdə təhsil**

Səfəvilərin dövründə geniş yayılmış təhsil növlərindən biri də evdə [Sare-xane] təhsil idi.[52] Bu təhsil növündən daha çox varlıların uşaqları yararlanırdılar. Təhsil fərdi xarakter daşıyırdı. Təlim ya ustad müəllimin evində, yaxud da təhsil veriləcək uşağın valideyninə məxsus evdə kerçəkləşdirilirdi. Müəllimlər zəhmətlərinin müqabilində valideyinlərdən pul alırdılar. Hakim təbəqə öz uşaqlarının təhsili üçün vəsait xərcləməkdən çəkinmirdilər və onların daha yaxşı təhsil alması üçün ən yaxşı ustad müəllimlərin cəlb olunmasına çalışırdılar. Hətta bunun üçün onlar bəzən, öz uşaqlarını təhsil ilə bağlı ölkədə olan xristian missionerlərin xidmətlərindən istifadə etməkdən belə çəkinmirdilər. XVII əsrin ortalarında [30-60-cı illər] bir neçə dəfə Səfəvi ölkəsində olan fransalı tacir J.B.Tavarnye şaha yaxınlığı ilə tanınan Təbriz xanı Mirzə İbrahimin Təbrizdə məskunlaşan Kapusen ordeninin nümayəndələrinə isti münasibətindən bəhs edir və bu münasibəti onun 2 oğlunun kapusenlərin yanında təhsil alması ilə bağlayır. Bununla bağlı o yazır: "Nə var ki, Mirzə İbrahimin kapusenlərə yaxşılıq etməsinə yol açan əsas səbəb, təhsil almalarını istədiyi iki oğlunun Ata Qabrieldən dərs almalarıdır. Mirzə İbrahim onlara ev tikmələri üçün yer almış və xərclərinin bir hissəsini də səxavətlə öz üzərinə götürmüşdür".[53]

**10-Saray məktəbləri**

Səfəvi sarayının nəzdində də xüsusisi məktəblər fəaliyyət göstərirdi. Saray məktəbləri Osmanlı sarayı nəzdində olan divan və endərun adlanan məktəblərə bənzəyirdi. Burada bir sıra elmlərlə yanaşı hərb sənətinin öyrədilməsinə xüsusi önəm verilirdi. Araşdırıcı X.Qasımov özünün "Orta əsr Azərbaycan mədəniyyəti" adlı əsərində Səfəvi sarayının nəzdində fəaliyyət göstərən bu tipli məktəblərdən bəhs edərək yazır: "Səfəvilərin dövlət sarayının nəzdində hakim dairələrə məxsus olan uşaqların və gənclərin təlim-tərbiyəsi üçün xüsusi təhsil sistemi fəaliyyət göstərirdi. Saray nəzdində fəaliyyət göstərən təhsil müəssisələrində ərəb dilinin incəlikləri, Quran, bir sıra dünyəvi elmlər, poetikanın sirləri və müəyyən sənət sahələri öyrədilirdi. Səfəvi hökmdarlarının əksəriyyətinin dövrün bir çox biliklərində və incəsənət sahələrində arif olması, onların xəttatlıqla, şeirlər yazmaqla məşğul olması məhz bu təhsil sisteminin nəticəsi idi. Sarayda hərb sənətinin sirlərinə yiyələnməyə xüsusi fikir verilirdi".[54] I

[51]*Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər),a.g.e.*, s. 435.
[52]E.Ismailov, *Ocherki po istorii Azerbaiyana,* Flinta, Moskva 2010, s.131.
[53]Jean-Baptiste Tavernier, *Tavernıer Seyahatnamesi*, (Çev. Teoman Tunçdogan), KitapYayln Evi, İstanbul 2006, s.93.
[54]X.S.Qasımov, *Orta əsrlərdə Azərbaycan mədəniyyəti*, Aspoliqraf, Bakı 2008, s.193.

Təhmasibin zamanından etibarən saray nəzdində fəaliyyət göstərən məktəblərdə əsir götürülən (əsasən gürcü və çərkəz mənşəli) uşaqların təhsili də önəmli yerə sahib olmağa başladı. M. Hodgonson bununla bağlı yazırdı: "Gənç əsirlərin ən yaxşılarına, ən yaxşı islamlaşmış mədəniyyəti aşılamaq üçün həm İran şerini, həm də oxçuluğu mükəmməl öyrədən bir təhsil verilirdi. ... onlar zövqlərini inkişaf etdirmək üçün rəsm təhsili belə alırdılar".[55] Sarayın nəzdindəki hərəmxanada qızlara da ayrıca təhsil verilirdi. Burada hərəm qadınlarına müəllimlər praktik və nəzəri dərslər keçirirdilər. Rəsm çəkmək, mahnı oxumaq, müxtəlif musiqi alətlərində çalmaq və rəqs etmək kimi təlimlərlə yanaşı, onlara ovçuluq, ata minə bilmək, ox atmaq və tüfəngdən istifadə edə bilmək kimi bacarıqlar da öyrədilirdi.[56] Şah Süleymanın hərəmxanası haqqında məlumat verən E.Kempfer hərəm qadınlarının qabiliyyətlərindən bəhs edərək yazırdı: "Bu qadınların bir çoxu müxtəlif hünərlərə malikdirlər və günlərini öz hünərlərini icra etməklə keçirərdilər. Bəziləri yaxşı hörgü hörür, bəziləri rəsm çəkərdi. Bir qrup dərzilikdə məharətli olurkən, digər bir qrup mahnı oxumaq, saz çalmaq və rəqs etməkdə məharətli idilər. Bu tərz məharətləri olmayanlar isə şahın və anasının rəğbətini qazanmaq üçün bunlardan birini öyrənməyə səy göstərirdilər. Hətta deyildiyinə görə bu qadınlardan bəziləri daha çox riyaziyyat olmaq üzrə müxtəlif elm sahələrində mütəxəssisdirlər. Bəziləri nişan almaqda və ox atmaqda çox yaxşıdı. Buna görə də şah onları ova gedərkən öz yanında aparırdı. Bu hünərlərdən heç birinə sahib olmayanlar isə cazibələrindən istifadə edərək şahın marağını özlərinə çəkmək istəyirlər".[57] Səfəvilərin hakimiyyətinin əvvəllərində hərəm qadınlarının təhsil və tərbiyəsi oğlan uşaqlarınkına çox bənzəyirdi. Hakim Səfəvi sülaləsinin qızlarının təhsilləri "dayə" və "lələ" adlı şəxslərə həvalə edilirdi.[58] Dayələr doğumdan dərhal sonra təyin edilir, lələlər isə yetkin qızların təhsili ilə məşğul olardılar. Səfəvi hökmdarlarının qız övladlarına təyin edilmiş lələlər haqqında tarixi mənbələrdə kifayət qədər məlumatlara rast gəlmək mümkündür. Qız övladlarına təyin edilən lələlər də hörmətli qızılbaş əmirləri içərsindən seçilib təyin edilirdi. Məs. Şah Təhmasibin ikinci qız övladı Pərixan xanımın dayəsi Əfşar tayfasının sayılan əmirlərindən biri Fəth Bəy, lələsi isə yenə həmin tayfadan olan Xəlil Xan olmuşdu. İsgəndər bəy Münşi Şah Təhmasibin dördüncü qızı Zeynəb bəyim haqqında danışarkən onun lələsindən də bəhs edir: "Zeynəb bəyimdir ki, qorçiye-şəmşir Şahəli bəy Şamlı onun lələsi idi. Hurixan xanım (yəni Zeynəb

---

[55]Marshall G. S. Hodgson, *İslâmın Serüveni: Bir Dünya Medeniyetinde Bilinç ve Tarih,*(Çev. Komisyon), C.III, İz Yayınları, İstanbul 1993, s.34.
[56]Sanson, *Sefername-i Sanson,* Tr. Taki Tefzali, Tahran 1346, s.119.
[57]E.Kempfer, *Sefername-i Kempfer,* Tr. Keykavus Cihandari, Tahran 1363, s.226.
[58]E.Eralp, Safevi Devleti'nde Harem, *Türk Tarihi Araştırmaları Dergisi,* Yıl. 2, S. 1, Bahar 2017, s.35.

bəyim – tərcüməçinin qeydi) Gürcüstanın əzəmətli qadınlardan idi. İsmayıl Mirzə onu Herat hakimliyinə yolladığı Durmuş xan Şamlının nəvəsi Əliquhı xana nişanlanmışdısa da, amma hələ ərə getməmişdi. Olduqca ağıllı və dünyadakı rəhmli adamların biridir. Əlahəzrət zillələllah şahın vaxtında ali hərəmxananın banusu idi və həzrətin yanında böyük hörməti vardı”.[59] Qeyd edə ki, Şah Abbasın dövründən etibarən lələlərin vəzifələrini hərəm xacələri icra etməyə başladılar.

**11-Lələlik institutu**

Səfəvilər dövründə şahzadələrin erkən yaşlarından təlim və tərbiyəsində və müəyyən hərbi və idarəetmə vərdişlərə yiyələnməsində, xüsusilə də vəliəhdlərin hakimiyyətə hazırlanmasında lələlik institutu çox mühüm rola malik idi. Lələlik institutu Səcuqlar dövründən mövcud olmuş atabəyik institutunun davamı olaraq fəaliyyət göstərirdi. Orta əsrlərdə Yaxın və Orta Şərqdə mövcud olan türk sülalə dövlətlərində atabəylik adlanan [başqa adlarla da] qəyyumluq, himayədarlıq institutu çox populyar olmuşdu.

Bir qayda olaraq şahzadələrin lələləri şah fərmanı ilə vəzifəyə təyin edilirdi. Səfəvi şahları onları adətən, şaha sadiq və çox nüfuzlu Qızılbaş əmirləri arasından seçirdi. Onların əsas vəzifəsi himayəsində olan şahzadənin dövrün real qayda qanunlarına, adət-ənənələrinə uyğun şəkildə yetişdirmək idi.[60] Səfəvilərin zamanında mövcud olan ənənələrə əsasən hökmdar uşaq, yaxud gənc yaşlarından ölkənin vilayətlərinə hakim təyin olunur və şahzadənin lələsini də onunla birlikdə oraya göndərirdilər. Kiçikyaşlı şahzadələr kamala çatana qədər himayələrində olan vilayətləri lələlər idarə edirdi. Həmin lələlər şahzadə hədd-buluğa çatandan sonrada onlarla birlikdə qalırdılar. Bununla bağlı İsgəndər bəy Münşinin “Tarixe-aləmaraye-Abbasi” əsərindən bir neçə nümunə gətirək: Heratın hakimi təyin “Şah Herat darüssəltənəsinin hakimliyini kamlı şahzadə Sam Mirzəyə verdi, Ağzıvar xan Şamlını onun lələsi, atalığı və Xorasan əmirülümərası vəzifəsinə qoyub, yürüş cilovunu İraq istiqamətinə döndərdi və tez-tələsik yola rəvan oldu”.[61]; “O həzrətin (Şah Təhmasibin-Ə.Ə.) yeddinci fərzəndi mötəbər gürcülərdən Zal bəy Gürcünün bacısından doğulan İmamqulu Mirzədir. O, böyük atasının vəfatı zamanı on dörd yaşında idi. Cənnətməkan həzrət şah onu Biyəpiş Gilanının darülmülkü olan Lahicana vali təyin etmişdi və mirzə orada yaşayırdı. Pirə Məhəmməd xan Ustaclı onun lələsi idi”.[62] Bəzi hallarda lələlər, eyni zamanda çox mühüm dövlət vəzifələri də daşıyırdılar. Məs. Yaqub Mirzənin lələsi Süleyman bəy Bican eyni

---

[59]İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* Fars dilindən (Ç. Şahin Fərzəliyev), Şərq-Qərb Nəşriyyat evi, Bakı 2010, s.261.
[60]Ş.T.Bünyadova, *Münasibətlər müstəvisi,* Mütərcim, Bakı 2018, s.67-68.
[61]İsgəndər bəy Münşi Türkman, *a.g.e.,* s.123.
[62]İsgəndər bəy Münşi Türkman, *a.g.e.,*s.259.

zamanda əmir əl-üməra vəzifəsini icra edirdi.[63] Elə hallar da olurdu ki, lələnin xanımı kiçik yaşlı şahzadəyə dayəlik edirdi. Məs. Şah Təhmasib kiçik yaşlarında olanda onun lələsinin [Əmir Sultan Mosullu] arvadı ona dayəlik etmişdi.[64] Abbas Mirzə kiçik yaşlarında olanda onun lələsi Əliqulu xan Şamlının zövcəsi Can Ağa xanım ona dayəlik etmiş, hətta onun ölümdən xilas edilməsində böyük rolu olmuşdu. Ona görə də sonralar şahlıq taxtına keçən I Şah Abbas dayəsinə böyük hörmət bəsləmiş və onu uca tutmuşdur. İsgəndər bəy Munşi bu haqda yazır: "Murad bəy Bayandur Türkmanın qızı və Durmuş xanın nəvəsi mərhum Əliqulu xan Şamlının zövcəsi olan Can Ağa xanım körpəlik çağlarından yəni əlahəzrətin Herat darüssəltənəsində lələsi və atalığı olmaqla şərəflənən Əliqulu xanın fəaliyyəti dövründən başlayaraq bu günlərədək səltənət bostanının çiçəyi kimi şahın qayğısı alında olmuşdur. O, izzət hərəmxanasının sair qadınlarından fərqlənərək, onların hamısından daha çox xidmət göstərmiş, uca *nənəlik* (nənəgi), yəni analıq (madəri) rütbəsi ilə sərəfraz olmuşdur, möhtərəm hərəmxananın böyük xanımı (kədbanu) kimi xüsusi etibara layiq görülmüşdür. Can Ağa xanım bu il Mazandaran qışlağından çıxan zaman fəna dayanacağında dayanaraq axirət səfərinə yollandı. Mərhumun uzun müddət xidmətini nəzərə alan əlahəzrət onun nəşini yüksək (müəlla) Kərbəlaya göndərdi və Can Ağa xanım o müqəddəs torpaqda dəfn olundu".[65]

**12-Sufilərdə təlim prosesi**

Səfəvilər dövründə Sufi təriqətlərinin də özünəməxsus təlim və təhsil metodları var idi. Təlim və tərbiyə prosesi təriqət şeyxinin iqamətgahı sayılan xanəgah, zaviyə, təkkə və s. adları ilə tanınan məkanlarda aparılırdı. Sufi təriqətlərində mərkəzi yerlərdən birini mürşid mürid münasibətləri tuturdu. Sufi təriqətlərində müridin total olaraq mürşidin, təriqət şeyxinin iradəsinə tabe olması vacib şərtlərdən idi. Müridin şeyxlik məqamına yüksəlməsi ancaq seyri sülükün [təriqətə qəbul edilən kişinin, müridin ta əvvəldən sona - vüsalat məqamına yetişməsinə aparan mənəvi yolçuluq] təriqət şeyxindən öyrənməklə və əziyyətlərlə dolu müridlik, vəlililik mərhələsini keçməsi ilə mümkün idi.[66] Mürşid isə öz növbəsində müridin tərbiyəsinə cavabdeh, onun təriqət yolçuluğunda düzgün hərəkət etməsinə köməklik göstərməli idi. Təriqət rəhbəri mürşidi-kamil bir yol göstərici, hər cür problemlərin həlli üçün müraciət edilə biləcək bir insan olub və tərbiyəedici funksiyaya malik mənəvi bir şəxs idi.[67]

---

[63]Ş.K.Məmmədova, *"Xülasət ət təvarix" Azərbaycan tarixinin mənbəyi kimi,* Elm, Bakı 1991, s.47.
[64]Ş.K.Məmmədova, *a.g.e.*, s. 47.
[65]İsgəndər bəy Münşi Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* II kitab (İkinci cildin ikinci yarısı), Fars dilindən (Çev. Ş. Fərzəliyev), Şərq-Qərb Nəşriyyat evi, Bakı, 2014, s.1790-1791.
[66]Ə.Əhməd, *XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti.* Bakı, "Elm" nəşriyyatı, 2012, s. 94.
[67]Ə.Əhməd, *a.g.e.*, s.94.

Səfəvilər dövründə də sufilər arasında öz populyarlığını itirməmiş Ö.Sührəverdinin qələmə aldığı "Əvarif əl-məarif" ("Bilik xəzinəsinin töhfələri") əsərdə bu barədə deyilirdi: “Mürşid müridi mənəvi pislik (və çirkabdan) təzkiyə (təmizlik) yoluna sövq edərək tərbiyə edər. Nəfs, pis sifət və xasiyyətlərdən təmizlənəndə qəlb güzgüsü parlayır, içində ilahi əzəmət nuru işıq saçır və tövhidin (Allahın bir olmasının) gözəlliyi ortaya çıxır. Bəsirət gözü cəlal nurunu gözləməyə və əzəli kamalı seyr etməyə cəzb edilir, ona can atılır. Bu durumda qul Rəbbini sevir. Bu nəfsi təzkiyə və tərbiyənin bir nəticəsidi”.[68]

[68]Ş.Sühreverdi, *Avarifül- Mearif (Gerçek tasavvüf),* Umran Yayımları, İstanbul 1995, s.103.

## Nəticə

Sonuc olaraq onu qeyd edək ki, orta əsrlər müsəlman təhsil sisteminin tərkib hissəsi və bir çox tərəfləri ilə eyniyyət təşkil edən Səfəvi təhsil sistemi zamanında bölgənin təhsil həyatına bir canlanma və dinamizm gətirmişdi. Bunu hakim elitanın, xüsusilə də Şah İsmayıl, Şah Təhmasib və Şah Abbasın təhsilə müsbət münasibəti, təhsilin çoxşaxəliliyi, eləcə də məktəblərin sayının və əhatəliyinin artması və burada təhsil alanların çoxluğu da təsdiqləyir. Ancaq bütün bu uğurlara baxmayaraq Səfəvi təhsil sistemi, o cümlədən məktəblər bir sıra problemlərdən də xali deyildi. Xüsusilə də I şah Abbasın hakimiyyətindən sonra Səfəvi hakimiyyətinin çöküşünə səbəb olan bir sıra amillər,bütövlükdə Səfəvi dövrü təhsil sisteminin inkişafına da ciddi surətdə mənfi təsir göstərdi. Qeyd edək ki, Səfəvi dövrü təhsil sisteminin bir sıra problemləri, eyni zamanda ümumislam təhsil sistemindəki qüsurlardan və baş verən ümumi tənəzzüldən də qaynaqlanırdı

### İstifadə edilmiş ədəbiyyat

*Azərbaycan tarixi,Uzaq keçmişdən 1870-ci illərə qədər,* (Prof. S.S.Əliyarlının redaktəsi ilə), Çıraq, Bakı 2009.

*Azərbaycan tarixi,*Yeddi cilddə, C. III (XIII-XVIII əsrlər), Elm, Bakı 2007.

BERNAL, J.D.,*"Modern Çağ Öncesi Fizik",* (Çev.Deniz Yurtören), TÜBİTAK Popüler Bilim Kitapları, Ankara 1995.

BÜNYADOVA, Ş.T., *Münasibətlər müstəvisi,* Mütərcim, Bakı 2018.

ÇELEBİ, E., *Gunumuz turkcesiyle Evliya Celebi seyahatnamesi: Bursa-Bolu-Trabzon-Erzurum-Azerbaycan-Kafkasya-Krım-Girit* (2. C., 1. Kitap), (haz.: Y. Dağlı - S. A. Kahraman), YKY, İstanbul 2005.

ÇELEBİ, E., *Gunumuz turkcesiyle Evliya Celebi seyahatnamesi: Bursa-Bolu-Trabzon-Erzurum-Azerbaycan-Kafkasya-Krım-Girit* (2. C., 2. Kitap), (haz.: Y. Dağlı - S. A. Kahraman), YKY, İstanbul 2005.

CHAMBERLAİN, M., *Ortaçağ'da Bilgi ve Sosyal Pratik, Şam, 1190-1350,* (Çev. Büşra Kaya), Klasik Yayınları, İstanbul 2014.

DOGAN, R., *"*Osmanlı Eğitim Kurumları *ve* Eğitimde İlk Yenileşme Hareketlerinin Batılılaşma Açısından Tahlili*", Ankara Üniversitesi İlâhiyat Fakültesi Dergisi,* C. XXXVII, Ankara Üniversitesi Basımevi, Ankara 1998, s. 407-442.

ERALP, E., Safevi Devleti'nde Harem, *Türk Tarihi Araştırmaları Dergisi,* Yıl. 2, S. 1, Bahar 2017, s. 25-47.

ƏHMƏD, Ə., *"XII-XV əsrlərdə Azərbaycanın mənavi mədəniyyəti",* Elm nəşriyyatı, Bakı, 2012.

ƏNSARİ, M.R., *Dəstur ül-müluk,* Mütərcim, Bakı 2015.

FÜZULİ, M., *Leyli və Məcnun,* Əsərləri, Altı cilddə, C.II, Şərq-Qərb, Bakı 2005.

GELIŞLİ, Y., "Osmanlı İlköğretim Kurumlarından Sıbyan Mektepleri (Kuruluşu, Gelişimi ve Dönüşümü)", *Türkler,* XV, 2002, s. 35-43.

HODGSON, M. G. S., *İslâm'ın Serüveni: Bir Dünya Medeniyetinde Bilinç ve Tarih,* (Çev. Komisyon), C. III, İz Yayınları, İstanbul 1993.

HIZLI, M., Osmanlı Sıbyan Mektepleri", *Osmanlı,* V, Edt. Güler Eren, Yeni Türkiye Yay., Ankara 1999, s. 207-217.

HALDUN, İ., *Mukaddime I,* (Çev. Zakir Kadiri Ugan), Millî Eğitim Basimevi, Istanbul 1997.

HALDUN, İ., *Mukaddime III,* (Çev.Zakir Kadiri Ugan), Millî Eğitim Basimevi, Istanbul 1996.

KHALILOV, R., Mekteby i medrese gor. Meshgeda. *Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza (SMOMPK),* Vypusk dvadtsat sedmoy, Otdel I. Tiflis: Izdaniye Upravleniya Kavkazskogo Uchebnogo Okruga 1900, s. 102-119.

MÜNŞİ, İ., *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi),* Fars dilindən ( Çev. Şahin Fərzəliyev), Şərq-Qərb Nəşriyyat evi, Bakı 2010.

MÜNŞİ, İ., *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi), II kitab (İkinci cildin ikinci yarısı),* Fars dilindən (Çev. Ş. Fərzəliyev), Şərq-Qərb Nəşriyyat evi, Bakı 2014.

ISMAILOV, E., *Ocherki po istorii Azerbaydjana,* Flinta, Moskva 2010.

KEMPFER, E., *Sefername-i Kempfer,* Tr. Keykavus Cihandari, Tahran 1363.

QASIMOV, X.S., *Orta əsrlərdə Azərbaycan mədəniyyəti,* Aspoliqraf, Bakı 2008.

MAKDİSİ, G., *İslam`ın Klasik Çağında ve Hıristiyan Batı`da Beşeri Bilimler,* (Çev. Hasan Tuncay Başoğlu), Klasik Yayınları, İstanbul 2007.

MƏMMƏDOV, S., *Azərbaycan XV-XVIII əsrin I yarısında,* V.İ. Lenin adına APİ-nin nəşri, Bakı 1981.

MƏMMƏDOVA, Ş.K.,*“Xülasət ət təvarix” Azərbaycan tarixinin mənbəyi kimi,* Elm, Bakı 1991.

NƏCƏF, Ə., Orta əsrlər Azərbaycanında təhsil anlayışı, strukturu, metodologiyası və tədris vasitələri (X-XVI əsrlər), *Azərbaycan məktəbi,* № 2 [683], 2018. s.107-123.

OLEARIY, A., *Podrobnoye opisaniye puteshestviya Golshtinskogo posolstva v Moskoviyu i Persiyu v 1633, 1636 i 1639 godakh.* Per. s nemets, Moskva Universitetskaya tipografiya, P.Barsova, 1870.

ONULLAHİ S.M., XVI –XVII əsrlərdə Təbrizdə maarif sisteminin bəzi məsələlərinə dair, *Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri,* TFH seriyası, 1974, №4. s. 22-28.

PARMAKSIZLOĞLU, İ., *Türkiye'de Din Eğitimi,* Milli Eğitim Basımevi, Ankara 1966.

PİRİYEV, V., *Azərbaycan XIII-XIV əsrlərdə,* Nurlan, Bakı 2003.

RÜSTƏMOV, F., *Şərqdə pedaqogika tarixi (qədim və orta əsrlər)* Nasir, Bakı 2002.

SANSON, *Sefername-i Sanson,* tr. Taki Tefzali, Tahran 1346.

ŞARDEN, J., *Səyahətname-ye Şarden Tərcome-ye Məhəmməd Abbasi,* C. II Ente-şarate Əmir Kəbir, Tehran, h. 1335.

SÜHREVERDİ, Ş., *Avarifül- Mearif (Gerçek tasavvüf).* Umran Yayımları, İstambul 1995.

TAVERNİER, J., *Tavernıer Seyahatnamesi.* (Çev.Teoman Tunçdogan), Kitap Yayın Evi, İstanbul 2006.